Respublika.- 2024.- 12 iyun, № 123.- S.5.

# Milli Qurtuluş Günü ilə başlanan yeni mədəniyyət siyasəti

*XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan qısa vaxtdan sonra onu itirmək təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı dərin ictimai-siyasi, mədəni-mənəvi, iqtisadi böhrandan xilas etdi, respublikamızın inkişafının sarsılmaz təməli qoyuldu. Milli Məclisdə 1993-cü il iyunun 15-də keçirilən iclasdakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və bu gün Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan dövləti yox olmaq təhlükəsindən qurtuldu. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 iyun tarixi həm dövlətçiliyimizin xilası günü oldu, həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.*

Müstəqilliyimizin ilk illərində çoxsaylı daxili və xarici problemlərlə əhatə olunmuş respublikamızda həyatın bütün sahələrində olduğu kimi, mədəniyyətdə də qarma-qarışıqlıq, qeyri-müəyyənlik, müxtəlif mənfi meyillər baş alıb gedirdi. Ölkənin siyasi rəhbərliyində olan qeyri-peşəkar şəxslərin mədəniyyətə qeyri-obyektiv, bəsit, dağıdıcı yanaşması, illərlə qazanılmış mədəni dəyərlərin lazımsızlığının bəyan edilməsi bu sahənin normal inkişafına təsir edir, müasir Azərbaycan mədəniyyətini ümumbəşəri məcradan təcrid edərək sağlam rəqabətin qarşısını alırdı.

15 iyun 1993-cü ildə xalqın tələbilə yenidən siyasi hakimiyyətə qayıdan müstəqil Azərbaycanın memarı, böyük strateq Heydər Əliyev ölkənin gələcək inkişafının strategiyasını və əsas parametrlərini müəyyən etdi. Dövlət siyasətinin mühüm istiqaməti kimi yeni mədəniyyət siyasətinin əsasını qoydu, məqsəd və prinsiplərini dəqiqləşdirdi, onun müasir tələblərə cavab verməsi vacib və təxirəsalınmaz hesab edildi.

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir", - deyən Ulu Öndər hesab edirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir.

Ümummilli Lider Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, mənəvi-mədəni dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün şərait yaradırdı. "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir", - deyən Heydər Əliyev - yeni mədəniyyət siyasətini şəxsi nəzarətində saxlayırdı. Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdıran ulu öndər: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir", - deyirdi. Bu sözlərdə böyük dövlət xadiminin və mütəfəkkirin mənəvi mədəniyyətə - ədəbiyyata, incəsənətə, münasibəti ifadə olunub.

Respublikamızda yeni mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların və qanun qüvvəli normativ-hüquq aktların, mükəmməl hüquqi bazanın hazırlanmasına ciddi diqqət yetirib. Mədəniyyət sahəsindəki boşluqları aradan qaldıraraq, bilavasitə ölkənin mədəni inkişafına təkan verən bir sıra qanunlar, o cümlədən "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Muzeylər haqqında", "Nəşriyyat işi haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanunlar qəbul edilib. Yeni mədəniyyət siyasəti çərçivəsində Azərbaycan Respublikası mədəniyyət sahəsilə bağlı bir sıra beynəlxalq konvensiyalara, o cümlədən "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Arxeoloji işin qorunması haqqında" konvensiyalara qoşularaq mədəniyyətimizin beynəlxalq hüququn prinsipləri əsasında qorunmasına, beynəlxalq təşkilatlarda fəal iştirak etmə, qarşılıqlı fəaliyyət, informasiya mübadiləsi ilə beynəlxalq mədəni əməkdaşlıqda xüsusi çəkiyə, mövqeyə sahibdir. 1997-ci ildə Mədəniyyət haqqında Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra Azərbaycan Respublikası Avropa Şurasının Mədəniyyət Siyasəti üzrə Departamenti ilə də yaxından əməkdaşlıq etmiş və bu çərçivədə "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" məruzəsi hazırlanıb, Strasburq şəhərində təqdimatı keçirilmiş və müxtəlif dillərdə çap olunub. Həmçinin Azərbaycan UNESCO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə də uğurlu əməkdaşlıq edir. Bunun nəticəsində, 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər", "Şirvanşahlar Sarayı", "Qız Qalası" ilə birlikdə həmin mərkəzin siyahısına daxil edilib.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin və incəsənətinin bütün sahələrində iz qoymuş dahi şəxsiyyətdir. Mədəniyyət və incəsənət xadimlərinin bir çoxlarının yaradıcılığına yaxından bələd idi və mədəniyyət xadimlərini qayğı ilə əhatə edirdi. Ulu Öndər sovet dönəmində respublikaya rəhbərlik edəndə də elm-mədəniyyət xadimlərini xüsusi diqqətlə saxlayıb, öz köməyini əsirgəməyib.

Xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdışı ilə həyata keçirdiyi yeni mədəniyyət siyasətində müvafiq olaraq yaradıcı adamlara dövlət dəstəyi də nəzərdə tutulub. Heydər Əliyevin sərəncamına əsasən onlarla fərdi pensiyaların, dövlət mükafatlarının, fəxri adların, gənclərə isə təqaüdlərin verilməsinə başlanılmışdır. Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərinin yubileylərinin və əlamətdar hadisələrin təntənəli qeyd edilməsi, beynəlxalq səviyyəli festival, müsabiqə, konqres və konfransların keçirilməsi Ulu Öndərin əsasını qoyduğu yeni mədəniyyət siyasətinin fəaliyyət istiqamətlərindəndir. Heydər Əliyevin mədəniyyət işçilərinin əməyini təqdir etməsi, onların yaradıcılığını yüksək fəxri adlar və mükafatlarla dəyərləndirilməsi bilavasitə Azərbaycan mədəni mühitinə verdiyi qiymətin təzahürüdür.

"Mədəniyyəti inkişaf etdirmək üçün milli ruhu yaşatmaq lazımdır" kəlamının müəllifi Heydər Əliyev sarsılmaz dühası ilə xalqın milli ruhunu yaşatdı, inkişaf etdirərək milli birlik konsepsiyasına - azərbaycançılıq ideologiyasına yüksəltdi, bölünmüş torpaqlardan, parçalanmış xalqdan qüdrətli xalq-dövlət birliyi yaratdı və dəmir yumruğa çevrilən bu birlik əzəli düşmənlərimizə ölümcül zərbələr vurdu.

Əsası Ulu Öndər tərəfindən qoyulmuş yeni mədəniyyət siyasəti Heydər Əliyev irsinin layiqli davamçısı, respublika Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövrün tələblərinə müvafiq uğurla davam etdirilir və innovasiyalarla zənginləşdirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu respublikamızın mədəni həyatının tənzimlənməsində, mədəniyyət siyasətinin səmərəli həyata keçirilməsində dövlət orqanları ilə birlikdə yaxından iştirak edərək mədəniyyətimizin inkişafında, təbliğində, mədəni irsimizin, dəyərlərimizin varislik prinsipləri əsasında qorunub saxlanılmasında müstəsna xidmətlər göstərir. Ümummilli Lider Heydər Əliyevin memarı olduğu yeni mədəniyyət siyasətinin əsas prioritetləri keçmişi, varislik əsasında ötürülən milli mədəni sərvətləri qoruyub saxlamaq, müasir dövrün müsbət nailiyyətlərini dəstəkləməklə inkişaf edir.

Ulu Öndərin dahiyanə dühasından yaranmış bu siyasət ərazi bütövlüyünü bərpa edərək, zaman-zaman itirdiklərini geri alan vahid Azərbaycan xalqının və dövlətinin milli birlik ideologiyasının sarsılmaz bazisi, mükəmməl sütunu olaraq "dəmir yumruğu" günü-gündən bərkidəcək.

**Ruhəngiz ƏLİYEVA,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Pedaqoji Kollecin müəllimi, AMEA-nın dissertantı.**